Aprelin 4-də Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Veteranlar Şurasının iclası keçirilib. İclasda son günlər ön cəbhədə yaranmış vəziyyət və bununla bağlı veteranların qarşısında duran vəzifələr geniş müzakirə olunub.

Daxili Qoşunların Veteranlar Şurasının sədri Murad Mürsəlov iclasda çıxış edərək aprelin ilk günlərində Ermənistanın təcavüzkarlığı və təxribatları nəticəsində döyüş zonasında gərgin vəziyyət yarandığını bildirib.

VETERANLARIMIZ ALİ BAŞ KOMANDANIN ÇAĞIRIŞINA HAZIRDIR

O, xüsusi vurğulayıb ki, milli ordumuz düşmənin təxribatlarına layiqli cavab verib. Belə ki, cəsur döyüşçülərimiz hücuma keçərək bir sıra yüksəkliklərə və yaşayış məntəqələrinə işğaldan azad ediblər. Ordumuzun bu zəfəri böyük qürur hissi doğurur. Cəmiyyətimizdə bununla bağlı vətənpərvərlik ovqatı daha da yüksəlib.

Veteranlar Şurasının sədri qeyd edib ki, son hadisələrlə əlaqədar Daxili Qoşunların veteranlarından Veteranlar Şurasına çoxsaylı müraciətlər edilir. Bu müraciətlərdə onlar dövlət başçısı cənab İlham Əliyevin siyasi kursuna və ordumuzun həyata keçirdiyi döyüş əməliyyatlarına dəstəyini ifadə edirlər. Veteranlar ordu sıralarına qayıtmağa, vətən torpaqlarının müdafiəsində dayanmağa hazır olduqlarını vurğulayırlar.

İclasda yaranmış vəziyyətlə bağlı fikir mübadiləsi aparılaraq veteranların döyüş və xidmət təcrübəsindən istifadə olunması təşəbbüsünün irəli sürülməsi, veteranların adından Daxili Qoşunların Komandanına müraciət olunması qərara alınıb.

İclasda həmçinin şəxsi heyətlə hərbi-vətənpərvərlik tərbiyəsi işinin daha da gücləndirilməsi yönündə tədbirlər də müzakirə olunub.

Yalçın Abbasov,
Daxili Qoşunların Veteranlar Şurasının katibi

Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədova

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının veteranlarının

MÜRACİƏTİ

Cənab Komandan!

2016-cı ilin aprel ayının ilk günlərində Qarabağ cəbhəsində Ermənistan hərbi qüvvələrinin törətdiyi təxribatlara, dinc sakinlərimizi müntəzəm atəşə tutmasına cavab olaraq Azərbaycan Silahlı Qüvvələri düşmənin ön mövqelərinə sarsıdıcı zərbələr vurmuşdur. Milli ordumuzun Cəbrayıl və Tərtər istiqamətlərində işğal altında olan bir sıra strateji yüksəklikləri, habelə yaşayış məntəqələrini işğaldan azad etməsi xalqımızda yüksək əhval-ruhiyyə yaratmışdır.

Xalqımız Azərbaycan Ordusunun bu zəfəri ilə fəxr edir. Həmin döyüşlərdə xalqımızın igid oğulları misilsiz şücaət göstərərək şəhidlik zirvəsinə ucalmışlar. Onların əziz xatirəsi daim qəlbimizdə yaşayacaqdır.

Azərbaycan zabiti və əsgəri bu qanlı savaşda öz yenilməzliyini, hərbi andına sədaqətini, vətən naminə fədakarlığını göstərdi. Vətən oğulları ata-babalarının şərəfli döyüş ənənələrini davam etdirməyə qadir və layiq olduqlarını bir daha ön cəbhədə sübuta yetirdilər.

Bütün bu gərgin hadisələrdə xalqımız həmrəylik nümayiş etdirdi, öz ordusuna hərtərəfli dəstək oldu. Bu çətin sınaqdan ölkəmiz daha da güclənmiş çıxdı.

Azərbaycan işğal olunmuş torpaqlarımızın azad olunması yolunda öz qətiyyətini nümayiş etdirdi. Bütün dünyanın diqqəti yenidən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə yönəldi. Ölkəmizin haqlı tələbləri bir daha dünya birliyinin nəzərinə çatdırıldı.

Ön cəbhədə baş verənlərə veteranlar da biganə qala bilməzdi. Daxili Qoşunların veteranları bütün ictimai tədbirlərdə, kütləvi informasiya vasitələri ilə çıxışlarda milli ordumuza dəstəklərini ifadə etmişlər. Döyüş bölgəsində gərginlik başlayandan sonra respublikamızın bütün bölgələrindən Daxili Qoşunların Veteranlar Şurasına döyüşçü veteranlarımız tərəfindən çoxsaylı müraciətlər olmuş, onlar ön cəbhədə yerə nə də döyüşməyə hazır olduqlarını bildirmişlər. Veteranlarımız prosesləri diqqətdə saxlayır, dövlətimizin, ordumuzun qüdrətinə dərin inam bəsləyirlər.

Daxili Qoşunların veteranları Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ölkəmizin ərazi bütövlüyünün bərpası, suverenliyimizin qorunması, dövlətçiliyimizin möhkəmləndirilməsi istiqamətində siyasi kursunu dəstəkləyir, məhz bu siyasi kursun ölkəmizin qarşısına qoyduğu məqsədlərə nail olunması - na ciddi zəmin yaratdığının xüsusi vurğulayırlar.

Daxili Qoşunların Veteranlar Şurası şəxsi heyətin hərbi-vətənpərvərlik tərbiyəsi işinə layiqli töhfələr verir, bu istiqamətdə məqsədyönlü fəaliyyətini ardıcıl olaraq davam etdirir. Biz inanırıq ki, yalnız vətənpərvər əqidəli əsgər döyüş tapşırıqlarını qalibiyyətlə yerinə yetirə bilər.

Cənab Komandan!

Daxili Qoşunların Veteranlar Şurası Daxili Qoşunların veteranları adından Sizə müraciət edərək dövlətimiz və xalqımız üçün bu taleyüklü günlərdə veteranların potensialından, döyüş və xidmət təcrübəsindən istifadə olunmasına zərurət yaranarsa, bunun üçün hər bir addım atmağa hazır olduğunu nəzərinizə çatdırır.

Biz inanırıq ki, şərəfli döyüş yolu keçmiş, öz sıralarında qəhrəman oğullar yetişdirmiş Daxili Qoşunlar respublikamızın ərazi bütövlüyünün bərpası kimi müqəddəs vəzifənin həyata keçirilməsi naminə hər bir fədakarlığa daim hazırdır.

Azərbaycan xalqı tarixin bu sınağından da alnıaçıq çıxacaq, haqq işimiz qalib gələcəkdir.

Vətənimiz, müstəqil dövlətimiz, üçrəngli bayrağımız əbədi olaraq var olsun!

4 aprel 2016-cı il

VƏTƏNDAŞ İSTƏYİ

O qədər çoxalıb ki, nifrətimiz, kinimiz,
Daha sözə baxmayır səbrimiz, təmkinimiz,
"Cihad" - deyə səslənir qürurumuz, dinimiz,
Gözləməkdən oğullar düşürlər haldan-hala
Ali Baş Komandanım, hücum əmri imzala.

Ermənini qandırmaq vurmaqdan
daha çətin!..
Təsiri olmayacaq danışığın, söhbətin,
Gərək ona göstərək biz gücünü milletin,
Kibrit elə qələmi - tonqalı özün qala,
Ali Baş Komandanım, hücum əmri imzala.

Dilləri qabar edib "Xocalı", "Kərkicahan",
Dərdli insan süstləşib olarmı tərki-cahan?!
Göylərdə şimşək deyil, şahid ruhudur çaxan
Millət hazır dayanıb düşməndən qisas ala
Ali Baş Komandanım, hücum əmri imzala.

Həsrət çəkir Zəngilan, Ağdam, Cəbrayıl, Şuşa
Laçın, Kəlbəcər deyir: "Vaxtdır, qalxın savaşa!"
Hədəfimiz bəlidir – gülləmiz getməz boşa.
Azad edilməlidir nə qədər qəsr, qala
Ali Baş Komandanım, hücum əmri imzala.

İndi zaman dəyişib - XX əsr deyil,
Güclü dövlət qurmuşuq, bu heç kəsə sirr deyil,
Düşmən taqətdən düşüb, daha səsi gur deyil,
Alabaştək göz dikib yadın verdiyi yola.
Ali Baş Komandanım, hücum əmri imzala.

Qatı duman çəkilib, bulanıq su durulub.
Ermənini qoruyan yad sədləri qırılıb.
Bizləri incitməkdən dərd özü də yorulub,
Haqişi ünvanına getsin deyə dərd, bəla.
Ali Baş Komandanım, hücum əmri imzala.

Türkün heç vaxt tükənməz torpağa sədaqəti
Məcburi köçkün belə ruhdan düşməyib qəti,
İndi birdir hamının arzu, məqsəd, niyyəti,
Baxışlarda sual var: "Nə vaxt düşürük yola?"
Ali Baş Komandanım, hücum əmri imzala!

NİCAT YOLU

Ustalıqla qurulub erməninin tələsi,
Neçə ildir düzəlmir "Qarabağ məsələsi"
Eşidilmir dünyada xalqımızın gur səsi?
Oda həsrət qalıbdır sönmüş nə qədər ocaq,
Bu xalqın xilasları yalnız özü olacaq.

Qeyrət çəkən kişilər vaxtından tez qocalır,
Qaçqınların köksündə həsrət dağı ucalır,
Xaçpərəstlər bu dərdə laqeyd, biganə qalır,
Qucaq açan kəslərə indi açılmır qucaq,
Bu xalqın xilasları yalnız özü olacaq.

"Sülhməramlı elçilər" gəlsə də bu ölkəyə,
Yenə mərmilər yağır cəbhəyani bölgəyə,
Yurdu oda salanlar çəkilərək kölgəyə,
Şirin vədlər göndərir bizlərə qucaq-qucaq.
Bu xalqın xilasları yalnız özü olacaq.

Təz-tez keçirilsə də müzakirə, debatlar,
Azalmaq əvəzinə çoxalır təxribatlar,
Düşmənə söz deyən yox, bize gəlir iradlar,
Yalanlar arasında itib-batıb doğru, haqq
Bu xalqın xilasları yalnız özü olacaq.

Yaranmış vəziyyəti dondurmaq istəyirlər,
Məsələni arxivə göndərmək istəyirlər,
Qəlbimizə su səpib söndürmək istəyirlər,
Qalmayıbdır onlarda daha həya, qanacaq.
Bu xalqın xilasları yalnız özü olacaq.

Ermənilər sığınıb böyük havadarına,
Sahib olmaq istəyir xalqımızın varına,
Bu gün yetişsə belə neçə arzularına,
Sanmasın ki, vəziyyət daim belə qalacaq,
Bu xalqın xilasları yalnız özü olacaq.

Yaradan, Yaşadan var, dünya sahibsiz deyil,
Əyriya düz desən də, hamı bilir düz deyil.
"Quran" Tanrı Sözüdür, o adıca söz deyil,
"Hər kəs gördüyü işin əvəzini alacaq"
Bu xalqın xilasları yalnız özü olacaq.

Basdır, üzdü millətə sonsuz ağrı-acımız,
Özgənin yardımına yoxdur ehtiyacımız,
Vardır azad ölkəmiz, qılıncımız, tacımız,
Vur yağını, mərd oğul, vurmasan o vuracaq,

Düşməndən qurtulmağın yolu vurmaqdır ancaq!
Bu xalqın xilasları yalnız özü olacaq!

Daxili Qoşunların Veteranlar Şurasının üzvü, "Qızıl qələm" mükafatı laureatı, Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü, döyüşçü-şair Elxan Xəzər

VƏTƏN OĞLU

O gecə tufan qopdu, dağıldıldı səngərlər,
Vətənə sipər oldu, parçalandı sinələr!
Şəhid oldu oğullar, o günahsız körpələr!
Qalx ayağa, Vətən oğlu, Azərbaycan sevənlər!

Yanır xalqın ürəyi hər an yada düşəndə,
Şuşa, Xocalı, Laçın, Qarabağım deyəndə,
Qisas eşqi yaşadır bizi dündən bu günə,
Zəfər günü yetişdi sözümüzü deməyə!

Vətən oğlu, başını sən uca tut həmişə,
Baş əymə düşmənə, əyilmə qeyrətsizə!
Xocalı qətliyamı dağ çəkib sinəmizə!
Qalx ayağa, Vətən oğlu son qoyaq vəhşiliyə!

Pələng kimi atıldı yağı düşmən üstünə,
Qan bürüdü gözlərin qorxmadı bir saniyə,
Qorxu saldı igidlikə düşməninin qəlbinə,
Yazıldı cəsarəti hər bir türkün qəlbinə.

Fərəh hissi keçirdi sizi sevən ürəklər,
Büküldü yumruqlar, bir döyündü ürəklər!
Vətənin keşiyində məğrur-cəsur əsgərlər,
Sizinlə fəxr edirik, mərd qəhrəman əsgərlər.

Anamdır, Vətənimdir, Torpağımdır sevdiyim,
Vətən üçün döyünür sinəmdəki ürəyim,
Hər an döyüşə hazır güclü ordun, əsgərin!
Vətənimdir, Vətənimdir, Odlar Yurdumdur mənim,
Vətənimdir-Vətənim Azərbaycanım mənim!

baş leytenant Ülfət Həsənov,
12565 saylı hərbi hissə

İDMAN

SİLAHSIZ ÖZÜNÜMÜDAFİƏ ÜZRƏ YARIŞIN NƏTİCƏLƏRİ MƏLUM OLUB

«2016-cı ildə Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planı»na və Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən, aprelin 09-10-da Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətində Daxili Qoşunların birinciliyi uğrunda silahsız özünümüdafiə üzrə yarış keçirilib.

Yarışda Daxili Qoşunların Ali Hərbi Məktəbindən və hərbi hissələrdən 13 komanda olmaqla 90 nəfər hərbi qulluqçu iştirak edib.

Şəxsi birincilik uğrunda keçirilən yarışın nəticələri aşağıdakı kimi olub:

65 kq. çəki dərəcəsində

I yer - leytenant Şahin Göyüşov (99713 saylı hərbi hissə)
II yer - gizir Kamil Əliyev (67987 saylı hərbi hissə)
III yer - əsgər Cəmil Sadıqov (25031 saylı hərbi hissə)

70 kq. çəki dərəcəsində

I yer - kapitan Aydın Həşimov (99713 saylı hərbi hissə)
II yer - əsgər Araz Mehrəliyev (67987 saylı hərbi hissə)
III yer - gizir Elçin Güləliyev (16073 saylı hərbi hissə)

75 kq. çəki dərəcəsində

I yer - gizir Əli Əlizadə (67987 saylı hərbi hissə)
II yer - çavuş Ramin Orucov (99713 saylı hərbi hissə)
III yer - kiçik çavuş Azad Abdullayev (16073 saylı hərbi hissə)

80 kq. çəki dərəcəsində

I yer - kiçik çavuş Novruz Əliyev (67987 saylı hərbi hissə)
II yer - leytenant Alim Məmmədov (99713 saylı hərbi hissə)
III yer - çavuş Məmməd Hacıyev (17074 saylı hərbi hissə)

85 kq. çəki dərəcəsində

I yer - kapitan Qasım Rəcəbov (67987 saylı hərbi hissə)
II yer - əsgər Müşviq Hüseynov (99713 saylı hərbi hissə)
III yer - baş çavuş Polad Ramazanov (16073 saylı hərbi hissə)

90 kq. çəki dərəcəsində

I yer - gizir Natiq Allahyarov (67987 saylı hərbi hissə)
II yer - leytenant Orxan Seyidov (99713 saylı hərbi hissə)
III yer - çavuş Razil Hacıyev (17074 saylı hərbi hissə)

+90 kq. çəki dərəcəsində

I yer - kapitan Taleh Ağayev (17071 saylı hərbi hissə)
II yer - baş çavuş Pərviz Rəcəbov (99713 saylı hərbi hissə)
III yer - leytenant Vüsal Həsənov (67987 saylı hərbi hissə)

Komanda üzrə nəticələrə görə, 1-ci yeri 35 xalla 67987 saylı hərbi hissə tutub. 99713, 17071 saylı hərbi hissələr isə 2-ci və 3-cü yerləri öz aralarında bölüşüblər. Aktivində heç bir xalı olmayan 16077, 17072 saylı hərbi hissələr və Daxili Qoşunların Ali Hərbi Məktəbi son üçlükdə qərarlaşıb.

Allah rəhmət eləsin

99713 saylı hərbi hissənin şəxsi heyəti polkovnik-leytenant Kamal Bayramova **əmisinin** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: leytenant X.Tağıyeva

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63, 590-65-21

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.
İlham ƏLİYEV

ƏSGƏR

№ 08 (474)
15 aprel 2016-cı il
Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN-in Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

"ORDU QURUCULUĞUNA DAHA DA BÖYÜK DİQQƏT GÖSTƏRİLMƏLİDİR, GÖSTƏRİLİR VƏ GÖSTƏRİLƏCƏKDİR!"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

İclasda Ermənistanın silahlı təxribatının qarşısını alaraq qəhrəmancasına şəhid olmuş Azərbaycan hərbçilərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Giriş nitqi ilə çıxış edən Prezident İlham Əliyev qeyd edib ki, bu ayın əvvəlində Ermənistan Azərbaycana qarşı növbəti silahlı təxribat törətmişdir: "Təxribatın qarşısı alındı, düşmənə layiqli cavab verildi. Azərbaycan öz torpaqlarını qoruya, öz hərbi mövqelərini daha da möhkəmləndirə bildi. Bu qanlı toqquşma bir daha onu göstərir ki, Ermənistan işğalçı siyasətini davam etdirir, sülh istəmir və çalışır ki, danışıqlar prosesi pozulsun. Bunu deməyə bizdə kifayət qədər əsas var, ilk növbədə, danışıqların 20 ildən çox müddət ərzində aparılması onu göstərir ki, Ermənistan sadəcə olaraq danışıqları sonsuz proses kimi görmək istəyir. Digər tərəfdən, danışıqlarda müəyyən irəliləyiş olan zaman Ermənistan müxtəlif yollarla danışıqları pozmağa cəhd göstərir. Son tarixin nümunələri bunu göstərir".

Dövlət başçısı vurğulayıb ki, Amerika Birləşmiş Ştatlarında olarkən Amerikanın siyasi rəhbərliyi ilə, o cümlədən Dağlıq Qarabağ münaqişəsi geniş şəkildə müzakirə edilmişdir:"Onlar Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirlər. Bütün həmsədr ölkələr - ABŞ, Rusiya, Fransa Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Dünyada Ermənistandan başqa elə bir ölkə yoxdur ki, bizim ərazi bütövlüyümüzü dəstəklməsin. Görünür ki, danışıqlarda mümkün ola biləcək müsbət dinamika Ermənistanın bu təxribata getməsini şərtləndirdi. Bir daha qeyd etmək istəyirəm, Azərbaycan öz torpaqlarını müdafiə edir, bizim başqa dövlətin torpağında gözümüz yoxdur, öz torpağımızı da heç kimə verəsi deyilik. Heç vaxt imkan vermiyəcəyik ki, Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın".

Prezident İlham Əliyev əlavə edib ki, bizə beynəlxalq ictimaiyyət tərəfindən olan inam artır: "Azərbaycan çox etibarlı tərəfdaş kimi tanınır və bölgədə sabitləşdirici rol oynayır. Onu da qeyd etməliyəm ki, birinci rübdə Azərbaycana 10 xarici dövlət və hökumət başçısı səfər etmişdir. Onların arasında rəsmi səfərlər olubdur və IV Qlobal Bakı Forumunda iştirak etmək üçün dövlət və hökumət başçıları gəlmişlər.

Bir daha demək istəyirəm ki, bu, bizim uğurlu xarici siyasətimizi göstərir. Bu siyasət davam etdiriləcək. Bir daha qeyd etmək istəyirəm ki, dünya birliyi Azərbaycana böyük hörmətlə və rəğbətlə yanaşır. Təsadüfi deyil ki, bir neçə il bundan əvvəl biz BMT Təhlükəsizlik Şurasına üzv olmuşuq. Bu, o vaxt da bizim üçün təsadüfi deyildi və bu gün də əldə edilən uğurlar bunu bir daha göstərir".

Birinci rübün iqtisadi göstəricilərinə toxunan ölkə başçısı qeyd edib ki, ilin birinci rübündə Azərbaycanda qeyri-neft sənayesi beş faizdən çox artmışdır:

"Birinci rübdə 37 min yeni iş yeri yaradılmışdır. Onlardan 31 mini daimi iş yeridir, 13 min iş yeri bağlanmışdır. Biz burada da müsbət balans görürük. Onu da qeyd etməliyəm ki, yeni iş yerlərinin yaradılması daha çox dövlət sektorunda baş verib. Bu da mənim göstərişimlə öz həllini tapan məsələdir. Çünki tikinti sektorunda, digər sektorlarda bazi işlər ixtisara düşüb. Belə olan halda işsizlik səviyyəsini aşağı səviyyədə saxlamaq üçün men qərar qəbul etdim ki, dövlət şirkətləri, dövlət qurumları yeni iş yerlərini açsınlar. İctimai işlər açılır və birinci rüb ərzində bu qədər iş yerlərinin açılması, əlbəttə ki, insanların sosial müdafiəsinə hesablanıb".

Prezident İlham Əliyev yekun nitqində diqqətə çatdırıb ki, ilin sonuna qədər ölkə qarşısında duran bütün vəzifələr icra ediləcək. Azərbaycan uğurlu inkişaf yoluna davam edəcək:

"Qarşıda duran növbəti vəzifələrə, ilk növbədə əlbəttə ki, biz ordu quruculuğuna daha da böyük diqqət göstərməliyik. Son illər ərzində bu istiqamətdə çox böyük addımlar atılmışdır, böyük işlər görülmüşdür. Ordumuzun maddi-texniki bazası möhkəmlənmişdir. Bu gün Azərbaycan Ordusu hem maddi-texniki texhizat, eyni zamanda, döyüş qabiliyyəti ba - xımından dünya miqyasında güclü ordular sırasındadır. Biz müharibə şəraitində yaşayırıq. Bizim torpaqlarımız işğal altındadır. Əlbəttə, belə olan halda, ilk növbədə ordu quruculuğuna daha da böyük diqqət göstərilməlidir, göstərilir və göstəriləcəkdir".

Əhalinin sosial rifah halının daha da yaxşılaşdırılması məqsədilə görüləcək işlərdən bəhs edən dövlətimizin başçısı həmçinin sosial mənzillərin tikintisi proqramının yaxın zamanlarda ictimaiyyətə təqdim ediləcəyini, bunun yeni təşəbbüs olduğunu deyib. Azərbaycan Prezidenti Sosial Mənzil Fondunun yaradılmasında əsas məqsədin belə mənzilləri azəmatlı əhaliyə aşağı qiymətlərlə və uzun müddətə kreditlə təqdim etməklə onların mənzil problemlərinin həllindən və sosial rifah hallarının yaxşılaşdırılmasından ibarət olduğunu vurğulayıb:

"Regionlarda işsizliyin azaldılması və maddi imkanları aşağı olan azəmatlı əhalinin mənzil probleminin həlli üçün bütün şəhərlərdə, rayon mərkəzlərində sosial mənzillərin tikintisinə başlanacaqdır. Xüsusilə qeyd etmək istəyirəm ki, nəinki Bakıda və böyük şəhərlərdə, bütün şəhərlərdə, bütün rayon mərkəzlərində dünya təcrübəsindən istifadə etməklə, vətəndaşların belə evlərə sahib olma qaydaları və həmin mənzillərdə yerləşdirilən insanlara mülkiyyət hüququnun verilmə prosedurları müəyyən ediləcəkdir. Sosial Mənzil Fondunun yaradılmasında əsas məqsəd belə mənzilləri azəmatlı əhaliyə aşağı qiymətlərlə və uzun müddətə kreditlə təqdim etməklə onların mənzil problemlərinin həllindən və sosial rifah hallarının yaxşılaşdırılmasından ibarətdir. Bu tipli mənzillərin tikintisi həm Bakı şəhərində, həm də bütün digər rayon və şəhərlərdə geniş şəkildə aparılacaqdır".

Azərbaycan iqtisadiyyatının bütün sahələri üzrə həyata keçirilən təxirəsalınmaz layihələrdən danışan Prezident İlham Əliyev çıxışının sonunda vurğulayıb ki, bu il biz gərgin işləməliyik ki, bütün vəzifələr icra edilsin, Azərbaycan iqtisadiyyatı inkişaf etsin, insanlar daha da yaxşı yaşasınlar.

DAXİLİ QOŞUNLARIN KOMANDANI BELARUS RESPUBLİKASININ ÖLKƏMİZDƏKİ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİNİ QƏBUL EDİB

Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov Daxili Qoşunların Baş İdarəsində Belarus Respublikasının Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri Gennadiy Vladimiroviç Axramoviçi qəbul edib.

Qonağı səmimi salamlayan general-leytenant Ş.Məmmədov Azərbaycan və Belarus respublikaları arasında tarixi dostluq münasibətlərinin mövcudluğundan danışaraq, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları ilə Belarus Respublikasının Daxili İşlər Nazirliyinin Daxili Qoşunları arasında son dövrlərdə səmərəli əməkdaşlıq münasibətlərinin qurulmasını yüksək qiymətləndirib. O, hər iki qurumun komandanlarının rəhbərliyi ilə nümayəndə heyətlərinin qarşılıqlı səfərlərini xüsusilə qeyd edərək, görüşlər zamanı hərbi əməkdaşlıq əlaqələrinin genişləndirilməsi istiqamətində səmərəli müzakirələrin aparılmasını bildirib.

Daxili Qoşunların Komandanı iki qurum arasında mövcud olan qarşılıqlı təcrübə mübadiləsinin xidmət-döyüş fəaliyyətinin təkmilləşdirilməsinə böyük töhfələr verəcəyini qeyd edib.

Səfir G.V.Axramoviç səmimi və qonaqpərvər qəbul üçün təşəkkürünü bildirərək, iki ölkənin müvafiq qurumları arasında faydalı əməkdaşlıq münasibətlərinin qurulması və inkişaf etdirilməsi üçün böyük imkanların olduğunu deyib. O, qarşılıqlı əməkdaşlıq münasibətlərinin davam etdirilməsinin vacibliyini ifadə edərək, təcrübə mübadiləsinin genişləndirilməsi ilə bir çox sahələrdə müsbət nəticələrin əldə ediləcəyinə ümidvar olduğunu vurğulayıb.

Görüşün sonunda general-leytenant Ş.Məmmədov qonaqla xatirə şəkli çəkdirib.

Mətbuat xidməti

MİLLİ AVİASİYA AKADEMİYASINDA TƏHSİLİNİ BAŞA VURMUŞ HƏRBİ QULLUQÇULARIMIZA SERTİFİKATLAR TƏQDİM OLUNUB

Aprelin 8-də Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov Daxili Qoşunların Milli Aviasiya Akademiyasını müvəffəqiyyətlə bitirən hərbi qulluqçuları ilə görüşüb.

Görüşdə Milli Aviasiya Akademiyasının prorektoru Ədalət Şəmiyev və Trenajor Mərkəzinin direktoru professor Rauf Cəfərzadə iştirak ediblər.

Qonaqları səmimi salamlayan general-leytenant Ş.Məmmədov son illərdə ordu quruculuğu istiqamətində məqsədyönlü islahatların həyata keçirildiyini diqqətə çatdıraraq, aviasiya sahəsində də yüksək ixtisaslı kadrların və mütəxəssislərin hazırlanmasını vurğulayıb. Qeyd edib ki, bu işdə Milli Aviasiya Akademiyasının rolu əvəzsizdir.

Hərbi qulluqçularımızı təbrik edən general-leytenant Ş.Məmmədov eyni zamanda yaradılan hərtərəfli şəraitə görə Milli Aviasiya Akademiyasının rəhbərliyinə dərin minnətdarlığını bildirib və əməkdaşlığın gələcəkdə də davam etdirilməsindən məmnunluğunu ifadə edib.

Milli Aviasiya Akademiyasının müəllim heyəti adından çıxış edən R.Cəfərzadə də öz növbəsində hərbi qulluqçuları təbrik edərək, onlara daima öz üzərilərində çalışmağı, peşə vərdişlərini daha da artırmağı arzulayıb.

Tədbirin sonunda pilotlara sertifikatlar təqdim edilib və xatirə şəkli çəkilib.

Qeyd edək ki, ötən ilin sentyabr ayında Milli Aviasiya Akademiyasında başlayan tədris kursunda Daxili Qoşunların "N" saylı hərbi hissəsindən 7 nəfər pilot, 1 nəfər borttexnik olmaqla, ümumilikdə, 8 nəfər hərbi qulluqçu iştirak edib. Bu müddət ərzində onların billiklərinin artırılması məqsədilə nəzəri məşğələlərlə yanaşı, praktiki uçuşlar da həyata keçirilib.

Mətbuat xidməti

BAŞ İDARƏDƏ 31 MART SOYQIRIMI QURBANLARININ XATİRƏSİ ANILIB

Ermənilərin 1918-ci il martın 31-də azərbaycanlılara qarşı törətdiyi soyqırımından 98 il ötür. Ümummilli Lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı fərmanla hər il martın 31-i azərbaycanlıların soyqırımı günü kimi qeyd edilir.

Bu münasibətlə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Baş İdarəsində anım mərasimi keçirilib.

Mərasim Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və erməni terroru nəticəsində həlak olmuş soydaşlarımızın əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb.

Sonra Mənəvi-psixoloji hazırlıq şöbəsinin rəisi polkovnik Mətləb Qənbərov "31 mart - Azərbaycanlıların soyqırım günüdür" mövzusunda çıxış edib.

Qeyd olunub ki, XIX əsrin əvvəllərindən başlayaraq Qafqazda kütləvi şəkildə məskunlaşdırılan ermənilər az müddət sonra bölgəni sözün əsl mənasında "qan çanağı"na çevirmişdilər. Onların "Böyük Ermənistan" yaratmaq kimi qondarma ideyasının gerçəkləşməsi yolunda atdıqları addımlar azərbaycanlılara qarşı kütləvi qətllərin və soyqırım aktlarının reallaşması ilə nəticələndi. Mart hadisələri zamanı Bakı ilə yanaşı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və başqa bölgələrdə soydaşlarımız xüsusi qəddarlıqla öldürülmüş, kəndlər yandırılmış, talan edilmişdir. Martın 31-dən aprelin 2-dək davam edən qırğınlar zamanı, ümumilikdə, 15 min nəfərdən çox azərbaycanlı öldürülmüşdür.

Eyni zamanda vurğulanıb ki, xalqımız öz vətənpərvərliyi, həmrəyliyi, o cümlədən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin siyasi iradəsi sayəsində ərazi bütövlüyümüzün bərpasına nail olacaq, işğal altında qalan torpaqlarımızı azad edəcəkdir.

Tədbirin sonunda mühüm tarixi sənədlərin və qanlı hadisələrin canlı şahidlərinin səsləndirdiyi fikirlərin də yer aldığı "Erməni Terrorizmi" adlı film nümayiş etdirilib.

Mətbuat xidməti

12565 SAYLI HƏRBİ HİSSƏNİN YARANMASININ 21-ci İLİ TAMAM OLDU

Aprelin 10-da Daxili Qoşunların 12565 saylı hərbi hissəsi yaranmasının 21-ci ildönümünü qeyd edib.

Əvvəlcə hissə komandanlığı və şəxsi heyət Naxçıvan şəhərində yerləşən Şəhidlər Xiyabanını ziyarət edib. Daha sonra bu münasibətlə hərbi hissədə təntənəli mərasim keçirilib.

Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın müdafiəsi uğrunda şəhid olan qəhrəmanlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni ifa olunub.

Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini

polkovnik-leytenant Şahin Bəylərov çıxış edərək, hərbi hissənin yaranma tarixi, 21 il ərzində qazanılmış nailiyyətlər barədə ətraflı məlumat verib.

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun şəxsi heyətə ünvanladığı təbrik məktubu oxunub.

Məktubda hərbi hissənin üzərinə ictimai təhlükəsizliyin və ictimai qaydaların qorunması, vətəndaşların konstitusiya hüquqlarının və əmin-amanlığının təmin olunması kimi böyük və məsuliyyətli vəzifələr qoyulduğu, şəxsi heyətin bu vəzifələrin öhdəsindən layiqincə gəldiyi, Daxili Qoşunların daha da möhkəmlənməsi, müasir standartlara cavab verən qoşun növünə çevrilməsi naminə fədakar əməyini əsirgəmədiyi qeyd olunub.

Həmçinin son vaxtlar aparılan quruculuq işləri nəticəsində maddi-tədris bazasının möhkəmləndirildiyi, hərbi qulluqçuların hazırlığının artırılması, sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində çoxsahəli işlərin görüldüyü vurğulanıb.

Təbrikdə Ümummilli Lider Heydər Əliyevin ideyalarına sadiq qalaraq, Vətən, dövlət və xalq qarşısında öz şərəfli borcunu layiqincə yerinə yetirən şəxsi heyətin bundan sonra da Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərdiyi etimadı doğruldacağına, qoşunların qəhrəmanlıq ənənələrini davam etdirəcəyinə əminlik ifadə olunub.

Mərasimdə vəzifə borclarının icrasına məsuliyyətlə yanaşan, şəxsi nümunə, yüksək hərbi intizam nümayiş etdirən bir qrup hərbi qulluqçuya mükafatlar təqdim edilib.

Tədbir Naxçıvan Dövlət Filarmoniyasının incəsənət xadimlərinin bayram konserti ilə davam etdirilib.

Həmin gün hərbi hissənin yaranma günü münasibətilə bölmələr arasında mini futbol yarışına da start verilib.

leytenant X.Tağıyeva

VƏTƏNPƏRVƏR HƏRBÇİLƏRİMİZ VƏZİFƏ BORCLARININ İCRASINA MƏSULİYYƏTLƏ YANAŞIR

Qədim tarixə, zəngin ənənələrə malik olan doğma Azərbaycanımız yüzilliklər boyunca yadelli işğalçıların hücumlarına məruz qalmış, milli-mədəni sərvətləri daima düşmənlərə göz dağı olmuşdur. Qara və ağ qızılı ilə dünyaya səs salan məmləkətim igid oğullarının dəmir iradəsi, qırılmaz vüqarı sayəsində bir çox mübarizələrdən alnıaçıq, üzüağ çıxmağa müvəffəq olub.

Hələ 1988-ci ildən bu günə kimi davam edən erməni təxribatı bu il aprel ayının 1-dən 2-nə keçən gecə daha da şiddətləndi. Düşmənin amansız həملərlərindən səbri tükənən Azərbaycan Ordusu ona sözün əsl mənasında layiqli cavabı verdi. Ermənı daşnaklarına ağır zərbələr vuraraq əks-hücuma keçən hərbçilərimizin cəsurluğu, döyüş ruhu sanki bütün sadə vətəndaşlara, gənclərə də sirayət etdi. Hamı, bütün Azərbaycan ictimaiyyəti sözün əsl mənasında həmrəylik nümayiş etdirərək, bir nəfər kimi torpaqlarımızın azadlığı uğrunda mübarizəyə hazır olduqlarını bəyan etdi.

Bu mübarizə əzmi Daxili Qoşunların şəxsi heyətində də hiss olunurdu.

16075 saylı hərbi hissədə olarkən bunun bir daha şahidi oldum. Daxili Qoşunların tarixində ilk dəfə 1992-ci ildə aparılan döyüş əməliyyatlarına cəlb olunan çavuş Hatəmxan Babayev, əsgər Ruslan Muradov kimi qəhrəmanlar yetişdirən hissədə hər zaman olduğu kimi bu gün də yüksək döyüş hazırlığı mövcuddur. Bunu hərbi hissənin xüsusi təyinatlı təstəsinin komandiri baş leytenant Yasin Cəfərov da təsdiq etdi.

Bildirdi ki, hissədə ən qabaqcıl bölmələrdən olan xüsusi təyinatlı dəstə bu gün torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etməyi, əldə silah düşmənlərimizə layiqli cavab verməyi səbirsizliklə gözləyir: "Bu Vətən bizə əcdadlarımızın, ata-babalarımızın miراsıdır. Bu məmləkət tarix boyu ərənələr oylağı, igidlər məkanı olub. Qanadsız bir quş, köksüz bir ağac olmadığı kimi torpaqsız da Vətən ola bilməz. Biz hər an torpaqlarımızın yağı düşməndən azad olunmasında yaxından iştirak etməyə hazırıq və səbirsizliklə cənab Ali Baş Komandanın döyüş əmrini gözləyirik".

Dəstə komandiri onu da əlavə etdi ki, Vətəni qorumaq, onun müdafiəsində mən dayanmaq üçün təbii ki, hər birimiz üzərimizə düşən məsuliyyəti dərk etməli, vəzifə borcumuza sözsüz əməl etməliyik. Bu məqsədlə baş leytenant Y.Cəfərov döyüş hazırlığının yüksək səviyyədə saxlanılması üçün şəxsi heyətlə mütəmadi olaraq nəzəri və praktiki məşğələlərin (xüsusi-taktiki hazırlıq, atəş hazırlığı, həmlə-desant hazırlığı, ləpirçilik, fiziki hazırlıq və s.) keçirildiyini qeyd etdi. Həmçinin hərbi qulluqçuların mənəvi-psixoloji durumunun yüksəldilməsində dəstənin tərbiyə işləri üzrə müavini leytenant Firat Sadıqovun böyük əməyinin olduğunu vurğuladı. Həqiqətən də aparılan təcrübələr göstərir ki, hərbi qulluqçunun döyüş ruhunun yüksək olması əsas şərtdir. Əsl hərbçi güclü iradəyə, sağlam düşüncəyə malik olmalıdır.

Bu keyfiyyətləri kiçik gizir Amil Bəşirli, çavuş Orxan Qurbanov, çavuş Ülvi Müslümzadə, kiçik çavuş Nofəl Əlizadə, kimi hərbi qulluqçularımızda hiss etmək olur. Onlar yurdumuza göz dikən mənfur qüvvələri məhv etməyə hər zaman hazırdırlar: "Bu gün biz gənc nəslin üzərinə düşən başlıca vəzifələrdən birincisi Vətəni sevmək, ona qəlbimizdə məhəbbət bəsləmək, bayrağımızı həmişə uca tutmaqdır. Anamızın adıyla daima qoşa çəkilən Ana Vətəni anamız tək sevməliyik".

Bəli, Vətəni sevmək, qədim, ulu keçmişimizi, milli irsimizi, ənənəmizi bizlərə əmanət edən babalarımızın mirasına sadiq qalmaq, daima onu qoruyub saxlamaq və gələcək nəsillərə çatdırmaq hər bir azərbaycanlının mənəvi borcudur.

leytenant N.Ağayeva

Son günlər cəbhə xəttində atəşkəs rejiminin erməni işğalçıları tərəfindən pozulması və ordumuzun düşmənə verdiyi layiqli cavab hər bir Azərbaycan vətəndaşında bir fikir formalaşdırıb: "İllərlə gözlədiyimiz o gün artıq gəlib. Qələbə günü, zəfər günü yaxındadır".

Təbii ki, ordumuzun döyüş meydanında göstərdiyi şücaət, rəşadət, igidlik hər birimizi sevindirir, hər birimizdə fəxarət hissi yaradır. İndi böyükdən kiçiyə hər kəs silahlanıb doğma elimizi, yurdumuzu düşməndən azad etməyə can atır, hətta Vətən uğrunda şəhid olmağa hazırdır. Azərbaycan xalqı bir yumruq tək birləşib Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin əmrini gözləyir. Bu, ölkədə döyüş ruhunun, vətənpərvərlik hissinin ən yüksək səviyyədə olmasından xəbər verir.

ŞƏXSİ HEYƏTİN DÖYÜŞ RUHU YÜKSƏK SƏVİYYƏDƏDİR

Ölkədə ictimai təhlükəsizliyin keşiyində mətin dayanan DİN-in Daxili Qoşunlarında da döyüş hazırlığı yüksək səviyyədədir. "Daxili Qoşunların statusu haqqında" Azərbaycan Respublikasının Qanununda qoşunların üzərinə düşən vəzifələrdən biri də zərurət olduqda torpaqların müdafiəsində iştirak etməkdir. Bu gün əminliklə demək olar ki, daxili sabitliyin qorunub saxlanılmasında peşəkarlıq nümayiş etdirən Daxili Qoşunların bütün şəxsi heyəti düşmənlə döyüşməyə tam hazırdır.

67987 saylı hərbi hissədə olarkən gördüklərim, şəxsi heyətin səsləndirdiyi fikirlər bunu bir daha təsdiq edir. Belə ki, məşğələlərdə yüksək fəallıq nümayiş etdirən şəxsi heyət cəbhə xəttində əldə olunmuş qəlbiyyətin sevincini bir-birilərinə bölüşürdü.

İştirak etdiyim məşğələlərin birində dəstə komandiri polkovnik-leytenant Abbas Kazımov komandir heyəti ilə vətənpərvərlik mövzusunda söhbətlər aparır, hərbi qulluqçuların ruh yüksəkliyinin, döyüş əzminin daha da artırılması üçün əlindən gələni əsirgəmirdi. Onunla söhbət əsnasında bildirdi ki, şəxsi heyət ordumuzun əldə etdiyi nailiyyətlər barədə məlumatlandırılır: "Demək olar ki, hər gün hərbi qulluqçular Vətəni qorumaq, düşmənə qarşı döyüşmək arzusu ilə müraciət edirlər. Əlbəttə ki, bu sevindirici haldır. Artıq düşmən də bizim gücümüzün nəyə qadir olduğunu görür və başa düşür ki, bu qüdrətin, bu əzmkarlığın qarşısında tab gətirə bilməyəcək".

O, əlava etdi ki, Daxili Qoşunların şəxsi heyəti geri qaytarılmış torpaqlarımızda üzərilərinə düşən funksiyaları yerinə yetirməyə daima hazırdır. Dəstə komandiri bu baxımdan hərbi qulluqçularla müvafiq mövzularda (hərbi vəziyyətin hüquqi rejimi tətbiq edildikdə komendant postlarının yaradılması, mühafizənin təşkili, axtarma-arama işlərinin aparılması və s.) məşğələlərin, təlimlərin davam etdirilməsinin vacib olduğunu bildirdi: "Bu mövzularda keçirilən praktiki məşğələlərin artırılması olduqca vacibdir ki, bu da öz növbəsində tədrisin mükəmməl mənimsənilməsinə səbəb olacaqdır. Çünki hərbi quluqçunun peşəkarlığı onun biliklərdən asılıdır".

Göründüyü kimi, yüksək döyüş ruhuna malik Daxili Qoşunların şəxsi heyəti istənilən tapşırığın yerinə yetirilməsinə qadirdir.

baş leytenant T.Əlizadə

HƏRBİ QULLUQÇULARIMIZ MƏKTƏBLİLƏRİN VƏTƏNPƏRVƏR RUHDA FORMALAŞMASINDA YAXINDAN İŞTİRAK EDİR

İctimaiyyətlə əlaqələrə ciddi önəm verən Daxili Qoşunların Komandanlığı bu gün Azərbaycan gənclərinin vətənpərvər ruhda formalaşmasında yaxından iştirak edir. Gənclər arasında bir çox hərbi-vətənpərvərlik layihələrinin reallaşmasına təkan verən qoşunlar ənənəyə sadiq qalaraq, bu istiqamətdə görülən işləri bu gün də davam etdirir.

67987 saylı hərbi hissənin hərbi qulluqçuları tərəfindən Nizami rayonu 328 saylı tam orta məktəbin şagirdlərinin "Şahinlər" hərbi-idman oyunlarına hazırlanması da bəyənilən tədbirlərin tərkib hissəsidir.

Keçirilən məşğələlərdə şagirdlər əsasən avtomat silahının müvafiq normativlərə uyğun sökülüb-yığılmasını, sursatın darağa doldurulmasını, həmçinin turnikdə dartınma, qollar üzərində bədənin döşəmədən qaldırılıb-endirilməsi, 100 metr məsafəyə qaçışlar da məşq edirlər. Sevindirici haldır ki, 8, 9 və 10-cu sinif şagirdlərinin iştirak etdiyi bu hərbi-idman oyunlarında qızlar da az deyil. Bu onu göstərir ki, onlar da hər bir Azərbaycan oğlu kimi silaha sarılıb Vətən torpaqları uğrunda döyüşməyə hər an hazırdırlar.

Məktəbin hərbi rəhbəri Mərdan Nəzərov da bu gün hər bir Azərbaycan gəncinin kiçik yaşlardan vətənpərvər ruhda tərbiyə aldığını xüsusilə vurğuladı. Bildirdi ki, gənclərimiz tarixini bilir, düşmənini tanıyır və torpaqlarını işğaldan azad etməyə daim hazırdır.

Mərdan müəllim həmçinin gənclər üçün yaradılan şəraitə və onların əsl vətənpərvər kimi formalaşmasına göstərilən köməkliyə görə Daxili Qoşunların Komandanlığına və hissə rəhbərliyinə məktəbin kollektivi adından öz minnətdarlığını bildirdi. O, Elnur Əliyev, Qəmər

Allahverdiyeva, Elmar Əzimov, Nülufər Sadıqova, Aytən Novruzova, Telli Cəfərova və onlar kimi vətənpərvər, qoçaq şagirdlərin timsalında Nizami rayonu üzrə keçirilən "Şahinlər" hərbi-idman oyunlarında qalib gələcəklərinə əmin olduğunu da sözlərinə əlavə etdi.

baş leytenant T.Əlizadə

"ŞƏHİDLİK ƏBƏDİ BİR HƏYATDIR"

Ali Hərbi Məktəbdə Türkiyə Jandarm Baş Komandanlığının zabiti kapitan Halil Özdəmirin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib

Son zamanlar bütün dünyanı lərzəyə salan terror aktları dünya gündəminin prioritetinə çevrilib desək, yanılmarıq. Silsilə şəkildə bir-birinin ardınca törədilən vəhşiliklər, axıdılan günahsız insan qanları, sözün əsl mənasında, bəşəriyyətə, insanlığa qarşı yönəldilmiş cinayətdir.

Ələlxüsus, son zamanlarda Türkiyə Respublikasında baş verən terror aktları ölkə ictimaiyyəti ilə yanaşı, hər bir Azərbaycan vətəndaşını da dərindən sarsıdır. Terrorçuluğu, ekstremizmi qətiyyətlə pisləyən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də hər dəfə çıxışlarında sabitliyin, ictimai təhlükəsizliyin pozulmasında maraqlı olan xarici qüvvələrə qarşı mübarizədə qardaş Türkiyənin yanında olduğunu, terrora qarşı istənilən addımı dəstəklədiyini bildirir.

Bu ağır günlərdə yüzlərlə şəhid verən Türkiyə Jandarm Baş Komandanlığının xalqın iradəsini, mübarizə əzmini qırmağa çalışan terrorçularla qəhrəmancasına mücadilə apardığının şahidi oluruq. Belə ki, martın 27-də baş verən terror aktının qarşısının alınmasında qəhrəmancasına həلak olan Jandarma Baş Komandanlığının zabiti, bölük komandiri kapitan Halil Özdəmirin göstərdiyi şücaət həqiqətən də hər birimiz üçün qürurvericidir.

Məlumat üçün bildirim ki, şəhid H.Özdəmir 2014-2015-ci illərdə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında xidməti ezamiyyətdə olmuş, təlim-tədrisin keyfiyyətinin artırılmasında, inkişafında əlindən gələni əsirgəməmişdir, Daxili Qoşunların Ali Hərbi Məktəbində şəhidin xatirəsinə həsr olunmuş "Şəhidlik əbədi bir həyatdır" adlı anım mərasimi keçirilib.

Mərasimdə Ali Hərbi Məktəbin rəisi general-mayor İlqar Məmmədov, Daxili Qoşunlar Komandanının müşaviri polkovnik Aziz Altıntepe, məhrumun silahdaşı, eyni zamanda yaxın dostu kapitan Çağlar Bulak, Ali Hərbi məktəbin zabit, gizir heyəti və kursantlar iştirak ediblər.

Tədbir Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyətinin ərazi bütövlüyü, suverenliyi uğrunda, eləcə də xidmət-döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuş hərbi qulluqçuların əziz xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başlayıb. Azərbaycan Respublikasının Dövlət Himni və Türkiyə Cümhuriyyətinin İstiqlal Marşı ifa olunub.

Sonra şəhid Halil Özdəmir haqqında xatirələrini bölüşmək üçün söz kapitan Ç.Bulaka verilib.

Kapitan Ç.Bulak Halil kimi Vətəninə, torpağına bağlı olan bir qəhrəman barədə danışmağın həm şərəfli, həm də çətin olduğunu bildirib. Əlava edib ki, o, martın 24-də yaralanmasına baxmayaraq, əsl komandir kimi bölüyünün başında durmuş, zabit şərəfini hər şeydən üstün tutaraq, martın 27-də terrorçulara qarşı aparılan əməliyyatlar zamanı şəhidlik zirvəsinə yüksəlmişdir.

O, H.Özdəmirin ölümü ilə ölümsüzlük qazandığını, dövlətin və xalqın öz şəhidləri ilə fəxr etdiyini, qürur duyduğunu qeyd edib.

Daha sonra Ali Hərbi Məktəbin kursantları tərəfindən şəhidlərin xatirəsinə həsr olunmuş şeir kompozisiyası və kapitan H.Özdəmir haqqında film nümayiş olunub.

Mərasimin sonunda general-mayor İ.Məmmədov çıxış edərək, dünyada geniş miqyas alan terror aktlarını qətiyyətlə pisləyib, yüzlərlə dinc sakinin terrorun qurbanına çevrildiyini ürək ağrısı ilə qeyd

edib. Bildirib ki, qardaş Türkiyənin hüzünnü öz acısı kimi hiss edən Azərbaycan xalqı bu gün ermənı terrorundan əziyyət çəkir: "Son zamanlar cəbhə xəttində yaşanan gərginlik neçə-neçə Vətən oğullarının qəhrəmanlıqla şəhid olmasına səbəb olub. Bütün hallarda düşmən təxribatının qarşısı alınır, cavab atəşi ilə susdurulur. Düşmənə qarşı amansız olan döyüşçülərimizin qəhrəmanlıq nümunələri, savaşda göstərdikləri rəşadət, ümumilikdə, iki dövlətin, bir millətin - döyüşkən ruhlu Türkiyə və Azərbaycan xalqının böyüklüyündən xəbər verir. Şəhidlərimizin şərəfli döyüş yolu sözün əsl mənasında bütün kursantlarımıza örnəkdir. Bu gün hər bir kursant dərk edir ki, Vətən şəhidlərini heç zaman unutmayacaq".

leytenant N.Ağayeva

Nümunəvi xidmət

Daxili Qoşunların 12565 saylı hərbi hissəsində müddətdən artıq xidmət edən hərbi qulluqçu **baş çavuş Raşad Həsənov** 1986-cı ildə Naxçıvan Muxtar Respublikasının Culfa şəhərində anadan olub. Orta təhsilini bitirdikdən sonra 2005-2007-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib.

O, 2013-cü ilin aprel ayından Daxili Qoşunların sıralarındandır. Öz vəzifələrinin öhdəsindən layiqincə gələn hərbi qulluqçumuz hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. Verilən bütün tapşırıqları vaxtında və keyfiyyətlə yerinə yetirir, ona təhkim olunmuş silahdan istifadə qaydalarını mükəmməl bilir, onun hər zaman saz vəziyyətdə saxlanılmasına nəzarət edir.

Baş çavuş R.Həsənov keçirilən məşğələlər zamanı fəallıq göstərir, müvafiq normativləri düzgün yerinə yetirir.

Bununla yanaşı, hərbi qulluqçumuz fiziki hazırlıq məşğələlərinə xüsusi maraq göstərir. Bu da təsadüfi deyil, çünki o, idmanın cü-do növü ilə məşğul olur. Dəfələrlə Naxçıvan Muxtar Respublikasının çempionu olub. Həmçinin 2 dəfə Azərbaycan çempionu adını qazanıb. Baş çavuş R.Həsənovun, ümumilikdə, 40-dan çox mükafatı var. Hərbi qulluqçumuza xidmətində və keçiriləcək yarışlarda yeni-yeni qələbələr arzulayırıq.

Əsgərlər Mirhəmid Əhmədli və İslam Bağırlı da hərbi hissənin nizam-intizamlı, çalışqan və savadlı hərbi qulluqçularındandırlar.

Əsgər Mirhəmid Əhmədli 1993-cü il yanvarın 3-də Zəngilan rayonunun Genlik kəndində anadan



olub. 2011-2015-ci illərdə Azərbaycan Memarlıq və İnşaat Universitetinin «Tikinti-İqtisad» fakültəsində ali təhsil alıb. 2015-ci ilin iyul ayından Daxili Qoşunların 12565 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdədir. Hazırda hərbi hissənin əməliyyat bölüyündə xidmət edir.

Əsgər İ.Bağırlı 1994-cü ildə Tərtər rayonunda anadan olub. 2011-2015-ci

illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin «İstehlak mallarının ekspertizası və marketinq» fakültəsində ali təhsil alıb. O da 2015-ci ilin iyul ayından Daxili Qoşunların 12565 saylı hərbi hissəsinin əməliyyat bölüyündə xidmət edir.

Daim öz üzərində çalışan hərbi qulluqçularımız verilən tapşırıqları vicdanla, qüsursuz şəkildə yerinə yetirir, komandanlığın etimadını daimə doğrultmağa çalışırlar.

Hərbçi peşəsinin çətin, lakin şərəfli olduğunu dəyən əsgərlərimiz bildirir ki, əlkədəki sabitliyin sadiq keşikçisi kimi bundan sonra da üzərilərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək, döyüş hazırlığını hər zaman yüksək səviyyədə saxlayacaqlar.

leytenant X.Tağıyeva, gizir L.Hüseynova

TORPAQ UĞRUNDA ÖLƏN VARSA, VƏTƏNDİR!!!

İnanırıq ki, ürəyi Vətən sevgisi ilə döyünən qəhrəman oğullarımızın sayəsində günbəgün güclənən ordumuz tezliklə tarixi ədaləti bərpa edəcəkdir!

Vətənimizin çətin günlərində - 1992-1994-cü illərdə torpaqlarımızın azadlığının, respublikamızın ərazi bütövlüyünün müdafiəsi zamanı hərbi qulluqçularımızın göstərdiyi qəhrəmanlıqlar nəinki Daxili Qoşunların, bütövlükdə hərb tariximizin ən şanlı səhifələrindəndir.

O illərdə aparılan döyüş əməliyyatları zamanı qoşunların şəxsi heyəti əsl qəhrəmanlıq nümunələri göstərərək xeyli qurbanlar verib, hərbi qulluqçularımızdan 9 nəfəri «Azərbaycanın Milli Qəhrəmanı» adına layiq görülüb. Şəhidlərimizin sayı çox olsa da, döyüşçülərimizdən bir qismi bu gün də sıralarımızda öz xidmətini şərəflə davam etdirir.

Ağdərə istiqamətində isə həm kəşfiyyatçı, həm də döyüşçü kimi cəbhə yoldaşlarımla birlikdə düşmənin xeyli sayda canlı qüvvəsini və silah-sursatını məhv etmişik".

"Yaxşı kəşfiyyatçı hansı xüsusiyyətlərə malik olmalıdır?" sualına cavab olaraq mayor E.Məmmədov bildirdi ki, yaxşı kəşfiyyatçı olmur, yaxşı kəşfiyyatçı doğulur: "Təbiidir ki, müharibə, həyat, təcrübə də insana çox şey öyrədir. Ümumiyyətlə, kəşfiyyatçı əməliyyata gedərkən sonunu düşünməməli, vəziyyətə uyğun çevik reaksiya göstərməyi və düzgün qərar verməyi bacarmalıdır".

Müharibə veteranı olan hərbi qulluqçumuz ən uğurlu əməliyyatlardan biri kimi 1993-cü ilin payızında Goranboy rayonu ərazisində yerləşən düşmənin ən iri bazalarından birini darmadağın etməklərindən də fəxrlə danışdı: "Soyuq payız günləri idi. Polkovnik E.Ağayevin əmrinə əsasən, səhər tezdən Tərtər batalyonundan kəşfiyyatçıları ilə birlikdə mən də Goranboy rayonuna göndərildim. Günortaya yaxın düşmən bazasını tapdıq. Onlarla erməni quldurunu məhv etdik. Bizimlə birlikdə kəşfiyyat əməliyyatında iştirak edən hərbçi fotoqraf bütün əməliyyatı çəkmişdi və hazırda həmin şəkillər Müdafiə Nazirliyinin arxivində saxlanılır".

Qeyd edim ki, bu uğurlu əməliyyat barədə polkovnik E.Ağayevin "Azərbaycan" radiosuna verdiyi müsahibə qiymətli material kimi arxivlərdə qorunur.

Mayor E.Məmmədov son günlərdə ordumuzun əldə etdiyi nailiyyətlər barədə fikrini bölüşməyi də unutmadı: "Vaxtilə ermənilər işğal etdikləri torpaqlarımızda elə müdafiə sistemi qurmuşdular ki, mən düşünürdüm ki, bəlkə də ordumuz bu səddi çox çətinliklə keçə bilər. Lakin Silahlı Qüvvələrin Ali Baş Komandanı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ordu quruculuğu istiqamətində həyata keçirdiyi təxirəsalınmaz islahatlar nəticəsində güclənən ordumuz qısa zaman kəsiyində bütün cəbhə boyu düşmən qüvvələrini darmadağın etdi. Bu gün ordumuzda çox yüksək əhval-ruhiyyə, gənclərimizdə vətənpərvərlik hissi mövcuddur. Mən əminəm ki, cəsarətli oğullarımız tezliklə işğal altında qalan bütün torpaqlarımızı düşmən tapdağından azad edərək, üçrəngli bayrağımızı dalğalandıracaqlar".

Bu fikirlərin davamı olaraq **kapitan Məftun Rəhimov** da ordu quruculuğu istiqamətində görülən işlərdən, ordumuzun uğurlarından danışdı.

O, 1992-ci ildə Daxili Qoşunların Əli-Bayramlı şəhərində yerləşən tədris mərkəzində oxuyub və "çavuş" hərbi rütbəsi ilə Ağdərə rayonuna ezam olunub. Kapitan M.Rəhimovun döyüş yolu da elə buradan başlayıb, daha sonra Zəngilanda davam edib: "Zəngilan taborunun komandiri polkovnik-leytenant Əkbər Hüseynovun rəhbərliyi altında 1993-cü ilin oktyabr ayına kimi gedən döyüşlərdə iştirak etmişəm. Bu müddət ərzində Qançanağı, Ayıdaşı adlanan ərazilərin düşməndən azad edilməsinə nail olmuş, xeyli sayda düşmən qüvvələrini məhv edərək, silah-sursatını ələ keçirmişik. Zəngilən işğal edildikdən sonra isə Araz çayı boyunca İran İslam Respublikasının ərazisindən keçərək Hacıqabul rayonunda yerləşən hərbi hissəmizə qayıtmışam".



Yeri gəlmişkən qeyd edim ki, kapitan M.Rəhimovun yaxın qohumu olan Sərvət Abdınov da Zəngilan döyüşlərində qəhrəmancasına döyüşərək, şəhid olub.

Hacıqabula qayıtdıqdan 1 həfte sonra Füzuliyə ezam olunan hərbi qulluqçumuz Horadiz şəhərinin düşmən qüvvələrindən azad edilməsində yaxından iştirak edir. Bu döyüşlərdə xeyli itki verməsinə baxmayaraq, döyüşçülərimiz qoyulan tapşırığın öhdəsindən rəşadətlə gəlməyi bacarır.

Döyüşlərdə həm də rabitəçi kimi fəaliyyət göstərən kapitan M.Rəhimov Bərdə batalyonu, Zəngilan, Cəbrayıl, Qubadlı polisləri ilə birlikdə əməliyyatlara da cəlb edildiyini diqqətə çatdırdı. O, həmçinin bir neçə ağır döyüşdə hərbçi yoldaşlarını mühasirəyə düşməkdən də xilas edib.

Müharibə veteranı **baş gizir Zülfi Əkbərov** da döyüş xatirələrini danışarkən bəzən qəmlənir, bəzən də haqlı olaraq qürurlanırdı.

İnanırıq ki, Vətən sevgisi ilə döyünən bu cür qəhrəman oğullarımızın sayəsində günbəgün güclənən ordumuz tezliklə tarixi ədaləti bərpa edəcəkdir!

leytenant X.Tağıyeva



Digər bir ağır döyüş isə avqust ayında Gülyatağı deyilən ərazinin müdafiəsi uğrunda aparılır. Baş gizir Z.Əkbərov bildirir ki, bu döyüşdə həm milli ordunun, həm də Daxili Qoşunların şəxsi heyəti böyük rəşadətlə vuruşurdu. Daxili Qoşunların Milli Qəhrəmanı Ruslan Muradov da məhz həmin əməliyyat zamanı qəhrəmancasına şəhid olub.

Hərbi qulluqçumuz 1992-ci il oktyabrın 27-də Qazançılar kəndi uğrunda aparılan döyüşlər zamanı yaralanır, lakin sağaldıqdan sonra yenidən cəbhəyə yollanır. Ağdam, Ağdərə, Füzulinin Bahmənli kəndi uğrunda gedən ağır döyüşlərdə iştirak edir. O, bu gün də vətənimizin hər bir qarış torpağı üçün canından keçməyə hazır olduğunu fəxarət hissi ilə bildirir: "Döyüş əmri verildiyi an yenidən silaha sarılaraq torpaqlarımızın düşmən tapdağından azad edilməsi, ərazi bütövlüyümüzün bərpa olunması uğrunda döyüşməyə hazıram".

İnanırıq ki, ürəyi Vətən sevgisi ilə döyünən bu cür qəhrəman oğullarımızın sayəsində günbəgün güclənən ordumuz tezliklə tarixi ədaləti bərpa edəcəkdir!

leytenant X.Tağıyeva